**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№357/3** **12 iyun 2023-cü il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş” barədə**

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə bu sahədə Türkiyə təcrübəsindən yararlanmaqla işçi qrupu (işçi qrupunun rəhbəri – Q.Bayramov; üzvlər – N.Talıbov, E.İbrahimov, Q.Əhmədov, R.Cəfərli) tərəfindən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş” təsdiq edilsin (əlavə olunur).
2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, bu qərarın və “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş”in mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, auditor fəaliyyətini həyata keçirərkən “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş”də nəzərdə tutulmuş müddəalara ciddi riayət etsinlər.
4. Auditorlar Palatası sədrinin elmi-metodik məslələr üzrə müşavirinə (N.Talıbov) və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş”in müddəalarından irəli gələn məsələlərin auditor təşkilatları və sərbəst auditorlar tərəfindən icra olunmasına dair 2023-cü ilin III rübündə seminarın keçirilməsi təmin edilsin.
5. Bu qərarın və “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş”in mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**